# Xosime Baku!

(Novella)

Yaman yerdə axşamlayıb. Ha hirslənir, yeri düşdü-düşmədi, acıqlanır uşaqların üstünə, hətta o gün az qaldı Ramizi salsın təpiyinin altına, hövsələsini basdı. Buna bax, alçaq əl çalır, gülür, deyir ki, qağam Bakıya gedəcək, ha, ha, ha...

Zalım balaları elə bil bir-birinin ağzına tüpürüb, nədi, səhər-axşam danışır, onu yola gətirməyə, başa salmağa çalışırlar ki, gərək mütləq Bakıya gedəsən, həkim yoxlamasından keçəsən, müalicə alasan...

Görəsən haradı o Bakı? Bizim bu Stalin kolxozu boyda olar? Uzaqdadı, ya yaxında? Atla getmək yaxşıdı, ya maşınla? Ordadamı mal-heyvan, qoyun-quzu saxlayırlar? Pambıq necə, əkən varmı?

Arvadağası düşdü yadına, Ayə, vallah bu Xədicənin də işi oyundu ey, o, da qoşulub bu corma-cocuğa, yalvarıb-yaxarır ki, daşı tök ətəyindən Xosu, qoy səni aparsınlar Bakıya, böyük-böyük duxdurların üstünə, yoxsa nə bilmək olar, şər deməsən, xeyir gəlməz.

Xədicə əmiqızısıdı, ağlı söz kəsəndə, özünü tanıyanda valideynləri: əmiqızı ilə əmioğlunun kəbini göydə kəsilib, dedilər və onların toy şənliyində yaxın qonşular, qohum-əqrəba iştirak elədi.

Xədicə dilli-dilavərdi, arıq, çəlimsiz boy-buxununa baxmayın, od parçasıdı. Ailənin gün-güzəranı, uşaqların məktəbə getməsi, biş-düş, bir sözlə, hər şey onun boynunadı. Hətta mal-heyvanı bazara aparıb satmağı da bəzi kişilərdən yaxşı bacarır. Nəyi yoxdu onun? Sandığında pulu da var, qızılı da...

Xosunun hələ yadından çıxmayan hal-qəziyyə. İki il qabaq uşaqların ağartısı bol olsun deyə evdə saxladıqları dörd sağmal inəyi qışın zəlov-zəlovunda oğru Qasım haramxor, nanəcim, hamının tüpürdüyü, nifrət elədiyi bu alçaq tövlədən çıxardıb, aparmaq istəyir. Taqqıltı, mələrti eşidən Xədicə itirmir özünü, qışqırır, bağırır. Hətta Qasımın başı üstündən atəş açır. İnəkləri qoyub, tüpürür dabanına Qasım, qaç ki, qaçasan...

Xosunun evə gəlib-getməyini ancaq Xədicə bilirdi. 3-5 gündən bir o, mal-heyvanı dostlarına tapşırıb gəlirdi və sübh tezdən yollanırdı Babaş qışlağına. O gün səhər açılan kimi balaca Yasəmən sevinə-sevinə uşaqlara xəbər verdi ki, axşam bizə bir kişi gəlmişdi. Bax, dam boyda, nənəmlə danışırdı. Xədicə bağrına basdı onu, şaqqanaq çəkdi.

-O, sənin qağandı ey, qurban olum.

-Demədin aldatdım... Mən onu haçan görmüşəm. Mənim qağam çöldədi. Çoxlu inəyi var...

Uşaq birdən anasından soruşdu:

-Bə o kişi tez-tez öskürürdü, az qalırdı boğulsun. Noolub ona?

Xədicə başını yellədi, dərindən köks ötürdü:

-Xəstədi bala. Nə özü bilir dərdini, nə də biz...

Sonra əllərini göyə qaldırdı:

-Özün kömək ol, ilahi-dedi və şalının ucuyla göz yaşını sildi.

...Xosu soyuqlar düşəndən, dumanlı-çiskinli payız yağışları başlayandan tez-tez gəlir. Xədicə əyin-başını səliqəyə salır. Sözün doğrusu, bəy balası kimi geyindirir onu...




Tez-tez yaşlı kişilərin xoş havalarda toplaşdığı Zilinin mağazasının yanına gedir, keçmiş, bu gün, gələcək, xüsusilə, kolxoz işi barədə qocaların maraqlı, məzəli söhbətlərinə qulaq asmaqdan doymur. Onların duzlu, şirin lətifələrini eşidəndə gülməkdən qəşş eləyir Xosu. Və hərdənbir kal öskürək onu yaxalayır. Az qalır boğula.

Hündür boylu, dolu bədənli Xosunun dostları arasında xətir-hörməti var. Dıbış arxada, orda-burda, söz-sözü çəkəndə deyir:

-Baxmayın ki, o bisavaddı, məktəb üzü görməyib, kənd-kəsəkdə bir elə tanınmır, amma haqq-hesabında yalan-palan bilmir, dost yolunda canından keçməyə hazırdı. Ötən il üç yaşlı cöngəni bağışladı mənə, nə qədər dedim, təzə doğan inəyi götürmədi. İndi canı yığılıb boğazına, nə xəstəlikdisə, əl çəkmir onun yaxasından. Heyf, son günlər pozulub əhvalı, canını qoymağa yer axtarır, bəzən özünü kanala atır, qamışlıqda daldalanır. Yox, çarəsizdi, necə eləsə belə boğulur, öskürək zəhrimar əl çəkmir yaxasından... Dıbışın gücü ona çatır ki, əvvəlki vaxtlara nisbətən günaşırı onu göndərir evə... Xədicə, bu od parçası, qonum-qonşunun sözüylə apardı onu türkəçarə ilə məşğul olan Xanım arvadın üstünə, o, dedi:

-Arxayın ol, Xədicə bacı, qoy bir həftə it əti yesin. Ciyərində əncəli var... Əlac olmadı, it əti də Xosunun öskürəyini kəsmədi. Sonra onu Seyid Alməmmədin ocağına apardılar və bu tərəflərdə yaxın-uzaq kəndlərdə tanınan Seyidin arvadı Gülxanım Xədicəyə dedi:

-Göy rəngli inəyin südünü bir həftə, on gün içsə ,ağanın cəddi haqqı olacaq sapsağlam. Yenə xeyri olmadı, süd də kişinin öskürəyini kəsmədi.

Axşam Xədicə ona yer saldı:

-Kişi yerdə yox, burda yat toxta, o biri otaqda uşaqlar dərs oxuyur, onlara mane olma. Mən yer var, ora gedirəm, tez qayıdacam, - dedi... Və iri addımlarla, qaça-qaça gəldi məscidə, ucu butalı ağ kəlağayısını bağladı äləmə, astaca: ay aləm sahibi özün kömək ol Xosuya, deyib qayıtdı evə.

O axşam xəyal dünyasında idi Xosu. Düşünürdü: nə Xədicəni, nə də uşaqları qınağa çəkməyin xeyri yoxdu. Son vaxtlar kəhər atın belinə qalxan kimi, ya da iti addımlarla yeriyərkən, qışqırtısına baxmayan heyvanın arxasınca qaçarkən, süd doğramaca qaşıq vuranda, öhö, öhösü ara vermir, tikə boğazında ilişib qalır. Ağrılar imkan vermir ki, gündüzün yorğunluğu gecələr canından çıxsın... Qələt eləyir corma-cocuq, Xədicə də ağzın yalayır onların. Rədd olsun Bakıdı-makıdı, nədi, heç hara gedəsi deyiləm... Bu heyz-feyzdə yenə boğuldu, öz-özünə: günah burdadı, bu zəhrimara qalmış qarnımda, - dedi... Bu vaxt uşaqlardan kimsə qaçdı kənd feldşerinin dalınca...

Əlində çantası, tövşüyə-tövşüyə özünü yetirdi hamının "doxtur" dediyi Həsənxan, iki həb atdırdı Xosuya o. Kişi istədi ağzına su ala, su töküldü üst-başına... Hal-qəziyyəni bilən feldşer qanı qaralan, canını qoymağa yer axtaran Xosuya dedi:

-Sənə qurban olum, ay əmioğlu, daşı tök ətəyindən, sözünə bax İmranın, get Bakıya. Orda indi təzə aparatlar gətirilib xaricdən. Həkim səni salacaq aparata, dəqiq diaqnoz qoyacaq, müalicə edəcək, sonra nə öskürək, nə də boğulma... Olacaqsan quş kimi, sapsağlam.

Rayonda iki həkim-terapevt var. Bir-birinin arxasınca şər-böhtan, qarayaxmalar... Pul üçün "hüdü" gedirlər. O bunu bisavad adlandırır, bu onu. Ancaq qan təzyiqini ölçüb, dava-dərman yazacaq, gəlib 3-5 gün, lap bir həftə müalicə olunacaqsan, nə fayda, yenə boğulma, kal öskürək, titrətmə, qızdırma, öldürəcək səni, lap ağırlaşacaqsan...

İmran-onun böyük oğlu orta ixtisas təhsilli zootexnikdi. Atasının yolunda hər cür cəfaya, əzaba dözməyə hazırdı. Son günlər narahatlıq yaşayır. İş yerində, təzə təşkil olunan fermada tez-tez ondan soruşurlar:

-Atovun vəziyyəti necədir? Niyə onu Bakıya, böyük-böyük həkimlərin yanına aparmırsan? Atannan muğayat ol. O, ailənizin böyüyü, çörək qazananıdı.

Və nəhayət, Xosunu yola gətirdilər evdə. Razı oldu Bakı söhbətinə. İmran yaxın dostunun tendli "Moskviç"inə mindirib apardı Bakıya, Xosunu... Xaricdə oxuyub gələn cavan həkim heç sorğu-suala tutmadan saldı onu aparata və məlum oldu ki, atdan yıxılıb, nəfəs yolunda çatışmazlıq var. Xosu çox yox, beşcə gün yatdı xəstəxanada. Düzgün müalicə və hər şey qaydasınca. Boğulma, kal öskürək qaldı arxada.

...Budu, "Moskviç"lə evə qayıdır şad-xürrəm, əli çalır, ayağı oynayır. İmrana sataşır:

-Əyə qırışmal, mal-heyvandan satıb bu maşın zəhrimardan ala bimirsən?

Birdən maşının radiosundan kimsə dedi: Xosine Baku!

Baay, bu nə sözdü? Kişinin qanı qaraldı, mindi cin atına... Yəqin alçaq Vəlixanın işidi, hamıya xəbər verir ki, Xosu Bakıdadı. Qoy qayıdım kaşara... sənin qol-qabırğovu sındırmasam, dədəmin oğlu deyiləm... Alçaq, binamus, oğraş...

Birdən yadına düşdü: evdə də dördkünc dəmir var, orda danışırlar, gülüşürlər. Hətta o gün bir kişi xoruz kimi quqquluqu eləyirdi, uşaqlar da gülürdülər.

Əslində "Moskviç"in radiosunda xəbərlər oxunurdu. 60-70 il öncə saat 11-00-də hər gün son xəbər azərbaycanca "Danışır Bakı", rusca "Qovorit Baku" və ermənicə "Xosime Baku".


**Əlibala Rəhimov,**
**publisist, "Qızıl qələm"**
**mükafatı laureatı,**
**Biləsuvar rayonu**